**02.06.2011**
**MƏNBƏ: AzərTAc**
[http://www.azertag.gov.az/index_az.jsp?id=8753&date=2011-06-02](http://www.azertag.gov.az/index_az.jsp?id=8753&date=2011-06-02)

# Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45-ci kilometrlik hissəsi dördzolaqlı olacaqdır.




Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45-ci kilometrlik hissəsi dördzolaqlı olacaqdır

Bakı, 2 iyun (AzərTAc). Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45-ci kilometrlik hissəsi dördzolaqlı olacaqdır.
"Azərinşaatservis" Məhdud Məsuliyyətli Cəmiyyətindən (MMC) AzərTAc-a bildirmişlər ki, qurum ilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti arasında "Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45 km hissəsinin dörd zolaqlıya genişləndirilməsi" layihəsinin icrası ilə əlaqədar bağlanan müqaviləyə əsasən MMC yaxın günlərdə baş podratçı qismində layihə üzrə tikinti işlərinə başlayacaqdır.
"Azərinşaatservis" MMC cari il fevralın 2-də "Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45 km hissəsinin dörd zolaqlıya genişləndirilməsi" layihəsi üzrə elan edilmiş tenderin qalibi olmuşdur.
Layihə üzrə genişləndirilməsi nəzərdə tutulan mövcud yolun uzunluğu 30 kilometrdir və yol ikizolaqlıdan dördzolaqlıya genişləndiriləcəkdir. İki gediş və iki gəliş üçün nəzərdə tutulan hərəkət zolaqlarının hər birinin eni 3,75 metr olacaqdır. Layihəyə əsasən, 4 avtobus dayanacağı, 2 piyada keçidi və 4 yeraltı mal-qara keçidi də tikiləcəkdir. I B texniki dərəcəyə aid edilən bu yolda genişləndirmə işlərinin həyata keçirilməsi üçün təxminən 2 il vaxt nəzərdə tutulmuşdur.
Layihə üzrə tikinti işlərini Dünya Bankı maliyyələşdirir.



Bakı, 2 iyun (AzərTAc).

Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45-ci kilometrlik hissəsi dördzolaqlı olacaqdır.

"Azərinşaatservis" Məhdud Məsuliyyətli Cəmiyyətindən (MMC) AzərTAc-a bildirmişlər ki, qurum ilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti arasında "Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45 km hissəsinin dörd zolaqlıya genişləndirilməsi" layihəsinin icrası ilə əlaqədar bağlanan müqaviləyə əsasən MMC yaxın günlərdə baş podratçı qismində layihə üzrə tikinti işlərinə başlayacaqdır.

"Azərinşaatservis" MMC cari il fevralın 2-də "Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 15-45 km hissəsinin dörd zolaqlıya genişləndirilməsi" layihəsi üzrə elan edilmiş tenderin qalibi olmuşdur.
Layihə üzrə genişləndirilməsi nəzərdə tutulan mövcud yolun uzunluğu 30 kilometrdir və yol ikizolaqlıdan dördzolaqlıya genişləndiriləcəkdir. İki gediş və iki gəliş üçün nəzərdə tutulan hərəkət zolaqlarının hər birinin eni 3,75 metr olacaqdır. Layihəyə əsasən, 4 avtobus dayanacağı, 2 piyada keçidi və 4 yeraltı mal-qara keçidi də tikiləcəkdir. I B texniki dərəcəyə aid edilən bu yolda genişləndirmə işlərinin həyata keçirilməsi üçün təxminən 2 il vaxt nəzərdə tutulmuşdur.

Layihə üzrə tikinti işlərini Dünya Bankı maliyyələşdirir.